AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 İYUL 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI № 141 (7899) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# Qardaş həmrəyliyinin əməli ifadəsi

*"Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər. Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm. Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür". Bu sözləri Prezident İlham Əliyev Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə deyib.*



## Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə fəaliyyəti Qarabağın dirçəldilməsində də özünü büruzə verəcək

Şuşa bu möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi edərək Azərbaycanın Türk dünyasının birliyinə növbəti töhfəsini verdi. Azərbaycanın dilbər guşəsində TDT-nin qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi dövlət başçımızın "Bizim ailəmiz Türk dünyasıdır" müdrik kəlamının nümayişinə çevrildi. Tədbir beynəlxalq münasibətlər sistemində böyük maraq yaradıb və bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Zirvə görüşü mühüm qərarların qəbulu ilə başa çatdı və önəmli hadisə olaraq türk dünyasının tarixinə düşdü.

Müasir dünyada güc amilinin getdikcə artması Türk dövlətləri arasında olan dostluq və qardaşlıq əlaqələrinin gücləndirilməsinin vacibliyini önə çəkir. Azərbaycanın xarici siyasətinin əsas prioritet istiqaməti də məhz bu məqsədə xidmət edir. Türk dünyasının birləşməsi bütün türkdilli xalqların gələcəyi üçün son dərəcə önəmlidir. Buna görə də Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr bu istiqamətdə böyük səy göstərirlər. Təbii ki, Azərbaycan üzv olduğu bütün digər beynəlxalq təşkilatlarda olduğu kimi, Türk Dövlətləri Təşkilatında da mühüm təşəbbüslərlə çıxış edir. Cənab Prezident bildirdi ki, TDT-nin ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi Azərbaycanın təşəbbüsüdür. Şuşa şəhərində keçirilən Zirvə görüşünün daha bir önəmi burada Qarabağ Bəyannaməsinin imzalanmasıdır.

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Qarabağ Bəyannaməsində Cənubi Qafqazın dəyişən geosiyasi və geoiqtisadi mühitində dost ölkələrin hərtərəfli əməkdaşlığa dair mövqeyinin müəyyən edilməsi nəzərdə tutulur. Azərbaycan dövlətinin 44 günlük Vətən müharibəsində qələbəsi onu beynəlxalq maraqların konsensus mərkəzinə çevirir. Başqa bir tərəfdən, sənəd Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin Azərbaycana mənəvi-siyasi dəstəyi sayıla bilər. Bu baxımdan, Qarabağ Bəyannaməsi Azərbaycanın regional güc statusunu möhkəmləndirir. Şuşada bir zamanlar Azərbaycanla Türkiyə arasında tarixi Şuşa Bəyannaməsinin imzalandığı məkanda Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsinin imzalanmasının böyük mənəvi anlamı var. Bu, həm də Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin sarsılmaz birliyini, ortaq hədəflərə çatmaq üçün birgə hərəkət etdiyini sübut edir.

Türk dövlətləri böyük coğrafi məkanı əhatə edir, bu ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, onların hər birinin zəngin təbii resursları, bu resursların nəqli üçün müasir infrastrukturu, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tarixi, mədəniyyəti var və bütün bunlar böyük sərvətdir. Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir. Cənubi Qafqazda davamlı sülh və sabitliyin bərqərar olması təkcə region ölkələri üçün deyil, həm də qlobal təhlükəsizlik və əlaqə üçün böyük əhəmiyyət kəsb edir. Regional xətlərin açılması, əməkdaşlığın artırılması ilə bütün türk dünyası, o cümlədən Mərkəzi Asiya, Qara dəniz və Xəzər hövzələri üçün böyük faydalar yaranacaq və yeni imkanlar açılacaq.

Torpaqlarını işğaldan azad edən, ərazi bütövlüyünü bərpa edən Azərbaycan xarici siyasətinin əsas istiqamətlərini müəyyən edib. Türk dünyasının birliyi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artırılması, qlobal arenada güc mərkəzinə çevrilməsi də bura daxildir. Azərbaycan Prezidenti də bunu dəfələrlə bəyan edib ki, Türk dünyası birlikdə güclüdür. Bu siyasət də onilliklərə söykənir. Artıq "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" ideyası digər türk dövlətlərini də əhatə edir. Azərbaycan türk dövlətlərinin bir araya gəlməsində, birliyinin yaranmasında və möhkəmlənməsində mühüm rol oynayır. Artıq 4 ilə yaxındır ki, Şuşa işğaldan azad edilib və orada sürətlə bərpa-quruculuq işləri aparılır. Qarabağ və Şərqi Zəngəzurda "Böyük Qayıdış" Proqramı uğurla icra olunur, bu torpaqlara həyat qayıdır. Ötən dövr ərzində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Orta Dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılmasında Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərirlər.

Azərbaycanın çətin günlərində, xoş günlərində də türk xalqı daim yanımızda olub. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılışında iştirak etdiyi Füzuli və Zəngilan Beynəlxalq Hava limanları həm Qarabağın iqtisadiyyatı, həm də strateji məqsəd üçün mühüm əhəmiyyət kəsb edir. "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da iki qardaş ölkənin Prezidenti tərəfindən qoyulmuşdur. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurublar. Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etmişlər. Səfər çərçivəsində, həmçinin Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimi keçirilmiş, əraziyə 15 baş ceyran buraxılmışdı. Göründüyü kimi, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı bütün sahələrdə özünü nümayiş etdirir. Hər zaman bir-birinin yanında olan iki qardaş ölkənin birliyi regionda sabitliyin, təhlükəsizliyin qarantı kimi dəyərləndirilir. Daim ədaləti, beynəlxalq hüququ müdafiə edən, bütün münaqişəli məsələlərin bu prinsiplər əsasında həllinə səy göstərən Azərbaycan və Türkiyə dostluğun, qardaşlığın, müttəfiqliyin nümunəsi olan bu birliyə yeni-yeni töhfələr verirlər.

**Mustafa KAMAL,**
**"Respublika".**